# Ədliyyə orqanlarının fəaliyyəti təkmilləşdirilir

**Bu gün ölkəmizdə dövlət idarəçiliyinin həyata keçirilməsində, qanunçuluğun, insan hüquq və azadlıqlarının təmin olunmasında mühüm rol oynayan Azərbaycan ədliyyəsinin 101 illik yubileyi ərəfəsində fərəh hissi ilə deyə bilərik ki, onun keşməkeşli, lakin şanlı bir tarixi vardır. Ədliyyəmizin tarixinin şanlı dövrlərindən biri Azərbaycan Demokratik Respublikasının mövcud olduğu illərə təsadüf edir.**

Şərqin ilk demokratik respublikası olaraq Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə sahəsinə böyük əhəmiyyət verilmişdir. 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Məhkəmələrin, ədliyyə və istintaq strukturlarının bərpası, onların maddi-texniki təminatı istiqamətində müəyyən işlər görülmüş, 6 aylıq kurslar təşkil edilmiş, Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeçiliyinə verilmişdir. Qısa müddət ərzində bir sıra qanun layihələri Ədliyyə Nazirliyinin təşəbbüsü ilə Parlamentin müzakirəsinə təqdim olunmuşdur.

Sovet hakimiyyətinin mövcudluğu dövründə gah ədliyyə sistemindən amirlik, repressiya aləti kimi istifadə edilməyə cəhd olunaraq ona həddən artıq geniş səlahiyyətlər verilmiş, gah onun səlahiyyətləri həddən artıq məhdudlaşdırılmış, gah da ləğv edilərək səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycan ədliyyəsinin tarixinin sovet dövrünün yeni mərhələsi başlandı. Milli mənafeləri hər şeydən uca tutan uzaqgörən siyasətçi Heydər Əliyev SSRİ kimi nəhəng bir imperiyanın tərkibində olduğu halə 70-ci illərdə Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi mövcudluğuna və inkişafına zəmin yaratmaq istiqamətində çox məharətlə tədbirlər həyata keçirirdi. Ölkə iqtisadiyyatı məhz bu məqsədəuyğun istiqamətlərdə inkişaf etdirilir, milli təhlükəsizlik, hərbi və digər sahələrdə milli kadr korpusu yetişdirilir və sair tədbirlər görülürdü.

Məhz ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladıqdan az sonra 1970-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi təsis edildi. Doğrudur, Ədliyyə Nazirliyi cəmi bir neçə funksiyaya malik kiçik bir qurum idi. Sözsüz ki, bu da demokratiyadan, hüquqi dövlət prinsiplərindən uzaq, Əsas Qanunda kommunizm quruculuğu kimi mücərrəd bir ideyaya nail olmağı ali məqsədi elan etmiş totalitar sovet rejiminin mahiyyətindən doğurdu. Lakin 1970-ci ildən Ədliyyə Nazirliyi stabilliyə nail olaraq təşkilat kimi formalaşmağa başladı, onun gələcək inkişafının təməli qoyuldu.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən və ümummilli liderimiz Heydər Əliyev ölkədə yenidən siyasi hakimiyyətə gəldikdən sonra Azərbaycan ədliyyəsinin həyatında yeni dövr başlandı.

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi ilə milli dövlət quruculuğunun aparılmasına, ölkə həyatının bütün sahələrində məqsədyönlü islahatların həyata keçirilməsinə sabit hüquqi zəmin yaradıldı.

Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycan Respublikasını daha dinamik, sürətli inkişaf yoluna çıxarmışdır. Ölkəmizin ədliyyə sisteminin inkişafı və təkmilləşdirilməsi daim dövlət başçımız cənab İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Son illərdə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı yüzlərlə normativ-hüquqi akt qəbul olunub. “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Qanunun qəbulu, Prezident İlham Əliyevin 18 aprel 2006-cı il tarixli Fərmanı ilə “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin təsdiq edilməsi Ədliyyə Nazirliyinin fəaliyyətinin normativ-hüquqi əsaslarının təkmilləşdirilməsində böyük, əhəmiyyətli addım oldu.

Dövlət başçısının müvafiq fərmanı ilə regional ədliyyə şöbələrinin yaradılması Azərbaycan ədliyyə sistemində bir yenilikdir. Dövlət başçısının Fərmanında regional ədliyyə şöbələrinin yaradılması qərara alınarkən yerlərdə ədliyyə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və onlara nəzarətin gücləndirilməsi, əhalinin ədliyyə orqanlarına müraciət etmə imkanlarının asanlaşdırılması, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəsinin artırılması məqsədi əsas götürülmüşdür. Eyni zamanda, Azərbaycan Respublikasının Ədliyyə nazirinin əmri ilə regional ədliyyə şöbələri haqqında Əsasnamə təsdiq edilərək, onların fəaliyyət istiqamətləri, vəzifə və hüquqları, habelə fəaliyyətinin təşkili qaydaları müəyyənləşdirilmişdir.

**Ölkəmizdə həyata keçirilən islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının, tətbiq olunan yeniliklərin hər biri xalqımızın mənafeyinə, vətəndaşlarımızın rifahının yüksəldilməsinə xidmət edir. Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: “Bütün təşəbbüslərimiz Azərbaycan xalqının daha yaxşı yaşamasına, Azərbaycan dövlətinin möhkəmlənməsinə yönəldilibdir”.**

Ölkə vətəndaşları bunu öz gündəlik həyatlarında açıq-aşkar hiss edir, qiymətləndirirlər. Bu gün hər bir Azərbaycan vətəndaşı əmindir ki, ölkəmiz qarşıdakı illər ərzində də sürətlə inkişaf edəcək, Azərbaycan dövləti daha da qüdrətlənəcək, insanların rifahı daha da yüksələcəkdir.

**Arifə QASIMOVA,**
**Ağstafa rayon qeydiyyat şöbəsinin rəisi, ədliyyə müşaviri.**

Respublika.- 2019.- 22 noyabr.- S.10.